# “Nikkensei” Yaponiya Dövlət Təqaüd Proqramı
# Tez-tez soruşulan suallar

**Sual 1: Mən hal-hazırda 4-cü kurs tələbəsiyəm. Proqrama müraciət edə bilərəm?**
⇒ Proqrama müraciət üçün vacib şərtlərdən biri müraciət zamanı və Yaponiyada təhsilinizi davam etdirəcəyiniz 1 il ərzində Azərbaycandakı universitetdə “tələbə” statusunda qalmağınızdır. Yəni, siz məzun olmayıb təhsilinizi 1 il ərzində dondurmaqla bu proqramla 1 il Yaponiyada təhsil alıb universitetinizə qayıda bilərsiniz. Həmin zaman qayıtdıqdan sonra mütləq şəkildə öz universitetinizdə təhsilinizi davam etdirməyiniz vacibdir.

**Sual 2: Yapon dilini özüm sərbəst şəkildə öyrənirəm. Lakin, universitetdə ixtisasım başqadır. Müraciət edə bilərəm?**
⇒ Xeyr, bu proqrama müraciət etmək üçün mütləq şəkildə universitetdəki ixtisasınızın yapon dili və yapon mədəniyyəti olması gərəkdir. Yəni, hal-hazırda rəsmi yapon dili ixtisası yalnız Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universitetində vardır deyə, bu proqrama həmin ixtisasların tələbələri müraciət edə bilərlər.

**Sual 3: Mən əvvəllər Yaponiya Dövlət Təqaüd Proqramını iştirakçısı olmuşam və təqaüd qazanmışam. Yenidən müraciət edə bilərəm?**
⇒ Xeyr, öncəki Yaponiya Dövlət Təqaüd Proqramı təcrübəsi olan şəxslər bu proqrama müraciət edə bilməzlər.

**Sual 4: “Nikkensei” proqramı üzrə hər hansısa dərəcə almaq olurmu?**
⇒ Xeyr, bu proqram dərəcə proqramı olmadığı üçün Yaponiyada təhsil alacağınız universitetə rəsmi bakalavr pilləsi tələbəsi kimi daxil olmaq mümkün deyildir. “Nikkensei” sadəcə Yaponiyada yapon dili və Yaponiya haqqında biliklərinizi artırmaq üçün nəzərdə tutulmuş 1 illik təlim proqramıdır. Əgər siz məhz bakalavr dərəcəsi almaq üçün proqramda iştirak etmək istəyirsinizsə, bu proqram sizin üçün uyğun deyildir.

**Sual 5: Seçimlərə ən çox təsir edən amil nədir?**
⇒ Seçimlər sizin təqdim etdiyiniz sənədlər, yazılı imtahan və müsahibə nəticələri əsasında ümumi şəkildə qiymətləndiriləcəkdir. Sənəd qəbulu mərhələsindən başlayaraq sizin sənədləriniz detallı şəkildə incələnərək, yalnız bütün sənədləri qaydasında olan və “Müraciət formasında” Yaponiyada təhsil almaq istəyini dolğun və inandırıcı şəkildə təsvir edən şəxslər növbəti imtahan mərhələsinə keçə biləcəklər. Yəni, sənəd seçim mərhələsində artıq ilkin ciddi ələnmələr olacağı üçün, bütün sənədlərin dolğun şəkildə yazılması və təqdim olunması vacib amillərdən biri olacaqdır. Yazılı imtahan nəticələri da hər zaman olduğu kimi həlledici məqamlardan biridir.

**Sual 6: Keçən ilki seçimlərdəki göstəricilər indiki seçimlərə təsir edəcəkmi?**
⇒ Xeyr, əvvəlki illərin nəticələri yeni seçimlərə təsir etmir. Siz yalnız cari ildəki göstəricilərinizə əsasən qiymətləndirilirsiniz.

**Sual 7: Universitetdən arayış və digər Azərbaycan dilində olan sənədləri necə təqdim etməliyəm?**
⇒ Bütün sənədlər ingilis və ya yapon dildə olması gərək olduğu üçün, Azərbaycan dilində olan qiymət vərəqəsi və ya arayış kimi sənədlərin notariusda tərcümə və təsdiq olunması gərəkdir.

**Sual 8: İmtahan balımı öyrənmək istərdim.**
⇒ Təəssüf ki, imtahan balları açıqlanmır və eyni zamanda imtahandan keçməmə səbəbləri də açıqlanmayacaqdır.

**Sual 9: Hansı imtahanlar olacaqdır?**
⇒ Bu proqram üçün yalnız yapon dili üzrə imtahan olur. Qeyd etmək istərdik ki, ötən illərdən fərqli olaraq bu ilki yapon dili imtahanı üçün zaman 100 dəqiqə olaraq (öncəki illərdə 2 saat olaraq, maksimum bal 300 bal olmuşdur), maksimal bal 100 bal olaraq hesablanacaqdır.

**Sual 10: Seçimlərdə müvəffəq olmadım. Müraciət sənədlərimi geri götürə bilərəm?**
⇒ Xeyr, səfirliyə təqdim olunan sənədlər geri qaytarılmır. Odur ki, yalnız bir nüsxədə olan orijinal diplom və s. kimi sənədləri bizə orijinal deyil, surəti şəklində təqdim etməyiniz gərəkdir.

**Sual 11: Təhsil müddətində Yaponiyada işləmək mümkündürmü?**
⇒ Bəli, saathesabı (part-time) iş şəklində mümkündür. Lakin, tələbə vizası olduğu üçün iş saatlarında məhdudiyyət vardır. İşləməyi qadağan edən universitet də ola bilər. Odur ki, ilk öncə universitetinizdən bu barədə məlumat almağınızı tövsiyə edirik. Daha sonra işləmək üçün gərəkli prosedurları araşdırdıqdan sonra məhdud olaraq saathesabı çalışa bilərsiniz.

**Sual 12: Təhsil müddətindən sonra Yaponiyada qalıb işləyə bilərəmmi?**
⇒ Yaponiyada 1 illik təhsildən sonra mütləq şəkildə Azərbaycana qayıtmaq və Azərbaycandakı universitetdəki təhsilinizi davam etdirmək lazımdır. Azərbaycandakı universiteti bitirdikdən sonra özünüz Yaponiyada iş taparaq işləməyə gedə bilərsiniz. Proqramın əsas şərtlərindən biri təhsil müddəti bitdikdən sonra Azərbaycanda təhsil aldığınız universitə geri dönüb təhsilinizi davam etdirmək olduğu üçün, bu şərtə cavab verə bilməyəcəyiniz təqdirdə, sizdən Yaponiya hökuməti tərəfindən ödənilən təqaüdün geri qaytarılması tələb oluna bilər.

**Sual 13: 1 illik təhsildən sonra Yaponiyada təhsilimi davam etdirmək mümkündürmü?**
⇒ Xeyr, yuxarıdakı suala cavab olaraq qeyd etdiyimiz kimi, bu proqram üzrə təhsiliniz bitən kimi Azərbaycana geri dönərək qeydiyyatda olduğunuz universitetdə təhsilinizə davam etməyiniz gərəkdir.